# OYUNLAR VƏ ONLARIN TƏLİMDƏ TƏTBİQİ XÜSUSİYYƏTLƏRİ

**Pəri Osmanova**
*Zaqatala rayonu Əliabad qəsəbə*
*3 saylı körpələr evi-uşaq bağçasının tərbiyəçi-müəllimi*

**Oyun inkişafın və öyrənmənin bütün sahələri ilə bağlıdır.**

Oyun məktəbəqədər yaşlı uşağın təməl fəaliyyətidir. Öyrənmə üçün istifadə etdiyi başlıca yoldur. Oyun oynamaq uşağın ehtiyacıdır və dünyanı kəşf etmək prosesidir. Oyun fiziki inkişafa, sosial, intellektual inkişafa müsbət təsir göstərir, şəxsiyyətin formalaşmasında əsaslı yer tutur. Eyni zamanda təxəyyülü və intellekti inkişaf etdirir. Emosional və sosial bacarıqları formalaşdırır.

Oyun deyiləndə biz böyüklər onun konsepsiyasına çox diqqət yetirmirik. Lakin bir çox mütəxəssislərin dediyi kimi oyun uşaqlar üçün ciddi işdir. Bu zaman uşaqlarda müxtəlif bacarıqlar forrmalaşır.

Jan Piyaje oyunu uşaqlar üçün bir iş hesab edirdi və oyunu daha çox idrakın inkişafı ilə əlaqələndirirdi. Uşaqlar hansısa oyunu oynayırlarsa, bu zaman səbəb-nəticə, problemin həlli və digər idrak məsələləri öz əksini tapır.

Viqostki oyuna daha çox sosial-bacarıqların inkişafı kimi baxırdı. Oyun zamanı uşaqlar müxtəlif rollara girməyi bacarırlar və bu zaman onlarda sosial-bacarıqlar, əməkdaşlıq, ünsiyyət, empatiya hissləri, nitq bacarıqları inkişaf edir.

Erikson oyunu daha çox ciddi öyrənmə metodu kimi təqdim edir və göstərirdi ki, oyun zamanı uşaqlar səhv və ya düz edərək emosiyalarını inkişaf etdirir.

Mariyya Montessori isə uşaqların daha çox müxtəlif vasitələrdən istifadə edərək sərbəst formada oyunu təşkil etdiyini qeyd edirdi.

Oyun fəaliyyəti zamanı öyrənmə o zaman baş verir ki, uşaq fəaliyyətə maraqlı yanaşsın, həmin oyundan zövq alsın və öyrənsin. Bunun üçün də əvvəlcə uşağın özünü tanımaq lazımdır. Tərbiyəçi-müəllim bunun üçün uşağı izləməli və görməlidir. **Uşaqları tanımağın ən yaxşı yolu onları müşahidə etməkdir.** Uşaqları müşahidə zamanı fəaliyyətin gedişatı nəticəsindən daha önəmlidir.

Bağçalarda idman fəaliyyəti, yemək saatı, yuxu saatı, məşğələ saatı kimi bir sıra fəaliyyətlər olur. Bu proseslərdə uşaqları müşahidə edərək prosesləri izləyə, onların maraq və meyillərini görə bilərik. Xüsusilə oyun prosesini izləyərkən onların ünsiyyət, sosial, emosional bacarıqları və maraqlarını görə bilərik. Bu zaman onların meyil və bacarıqlarını təyin edə və uşaqlara diferensial yanaşaraq, onlara uyğun oyunlar təşkil edib uşaqları təşviq edə bilərik.

**Oyun nədir?**

Oyun hər yaş dövrü üçün fərqli məna kəsb edir. Yetkin yaşlı insanlar oyun oynayaraq asudə vaxtlarını dəyərləndirdikləri halda, məktəbəqədər yaşlı uşaqlar üçün oyun başlıca təlim metodu və öyrənmə prosesidir. Onlar oyun oynayaraq dünyanı, ətraf mühiti kəşf edirlər. Ətrafda baş verən prosesləri, əşyaları, onların rolunu oyun vasitəsilə öyrənirlər. Oyun məcburi fəaliyyət deyil, onlar oynayarkən oyundan zövq almalı və əylənməlidirlər ki, öyrənmə prosesi baş versin. Qeyd etmək lazımdır ki, uşaqların rəsm çəkməsi, təsviri fəaliyyətin bir üsuludur. Bu və bu kimi fəaliyyətlər oyun deyil.

**Yaş xüsusiyyətlərinə görə oyunlar**

**1-3 yaş**

Bu yaşda uşaqlar əsasən duyğu və hərəkətə əsaslanan oyunlara maraq göstərirlər. Dil inkişafı bu yaşda başlayır, əşyaları tanımaq, tutmaq, sıxmaq, atmaq, birləşdirmək kimi sadə hərəkətlər öyrənilir. Bu yaşda uşaqlar ətrafı tanımaq üçün hiss etməyə ehtiyac duyurlar. 1-3 yaş arası uşaqlar sensomotor, blok və kub oyunları, barmaq kuklaları ilə oyunlar oynaya bilərlər. Xüsusilə bu yaş dövründə oyunlar təşkil edilərkən oyunun eyni zamanda nəql edilməsi uşaqda oxuyub-anlama bacarığını daha yaxşı formada inkişaf etdirəcək.

1-3 yaşlı uşaqların oynaya bilməsi üçün aşağıda bir neçə oyun nümunəsi təqdim olunur:

- Top at, tut – yumşaq topu uşağa atmaq və onun tutmağa çalışması;
- Kubik düzəltmə – müxtəlif rəngli kubikləri üst-üstə qoymaq;
- Rəngləri tap – müxtəlif əşyaları göstərib “qırmızı haradadır?” sualını vermək;
- Güzgü oyunu – uşaq hərəkət edir, böyüklər də eyni hərəkəti təkrar edir;
- Şəkilli tapmaca – şəkilli kartlardan “pişik haradadır?” deyə soruşmaq;
- Qəribə torba – içi görünməyən torbanın içinə müxtəlif əşyalar qoyulur və əşyalar bir-bir uşaqlara göstərilərək nə olduğu soruşulur;
- Kimin/nəyin səsi – müxtəlif səslər səsləndirilərək kimin/nəyin səsi olduğu uşaqdan soruşulur.



**3-6 yaş**

Bu dövrdə sosiallaşma, dil bacarığı və qaydalı oyunlara maraq artır. Koqnitiv bacarıqlar daha da təkmilləşir və komanda üzvü ola bilirlər. Bu dövrdə uşaq daha yaradıcı olur, rol oyunları və qaydalı oyunlara maraq göstərir. Bu yaş dövründə uşaqlar rollu oyunlar, pazl oyunları, qaydalarla və ya komanda oyunları oynaya bilərlər.

3-6 yaşlı uşaqların oynaya bilməsi üçün aşağıda bir neçə oyun nümunəsi təqdim edilir:

- Rol oyunu (“həkim”, “mağaza”) – uşaq müəyyən rolda olur, məsələn həkim, müştəri və s.
- Pazl yığma – iri pazl parçalarını düzgün birləşdirmək.
- “Kim gizləndi?” oyunu – bir oyuncaq gizlədilir, uşaq isə gizlədilən oyuncağı tapmalıdır.
- Əksini et – böyüklər “əlini qaldır” deyir, amma uşaq əksini etməlidir (əlini endirməlidir).
- Anamın/atamın uşaqlıq oyunları – valideynlərin uşaqlıq vaxtında oynadıqları oyunlar övladları ilə birgə oynanılır.
- Ailə albomu – ailə üzvlərinin şəkilləri ilə ailə albomu yaradılır və şəkillər ətrafında söhbət aparılır.
- Meyvələrin söhbəti – hər kəs fərqli meyvə rolunda çıxış edərək, rol aldığı meyvə haqqında məlumat verir.



**Oyunların təşkili forması**

Oyunun müddətini, oyunun qruplaşmasını və məqsədlərini müəyyən etmək, böyüklərin oyunda iştirakını təmin etmək üçün oyunu planlaşdırmaq lazımdır. Oyunu təşkil edərkən əsasən 3 meyara diqqət yetirmək lazımdır:

- oyun müddəti;
- oyun yeri;
- oyun resursu.

Oyun müddətinin həddindən artıq uzun olması uşaqları öyrənməyə təşviq etməyəcək. Bu, daha çox uşaqların sıxılmasına gətirib çıxaracaq. Oyun yeri mütləq şəkildə uşaqlar üçün təhlükəsiz olmalıdır. Eyni zamanda, bu yer uşaqların sərbəst hərəkətini təmin etməlidir.

Oyunların tədrisə inteqrasiyası zamanı fəaliyyət mərkəzlərindən istifadə edilə bilər. Məşğələnin iş üsulu oyunla qurula bilər. Məşğələnin mərhələləri oyunəsaslı təşkil edilə bilər. Gəzinti zamanı oyunlardan istifadə edilə bilər.

Tərbiyəçi-müəllimlər oyunda iştirak edərkən müşahidəçi, bələdçi, oyun yoldaşı ola bilərlər. Sadəcə bu rollarda olarkən uşağın xəyal dünyasına daxil olub həyəcanlı və həvəsli olduqlarını uşaqlara göstərməlidirlər.

**Oyuncaqlar**

Oyuncaqlar uşağın 5 duyğu orqanını və duyğularını stimullaşdıran, bacarıqlarını inkişaf etdirən, xəyal gücünü təkmilləşdirən oyun vasitələridir. Oyuncaqların rəngi, forması, tərkibi funksional olmalı, uşaqların yaşlarına və inkişafına uyğun olmalıdır. Eyni zamanda oyuncaqlar diqqət çəkməli və zərərsiz olmalıdır. Uşaqlarda aqressiya hislərini bəsləyən qılınc, silah, bıçaq kimi oyuncaqlara üstünlük verilməməlidir.

Oyuncaqlar həm hazır alına bilər, həm də istifadə edilməyən vəsaitlərdən hazırlana bilər. Əlimizin altında olan bir çox əşyanı öyrədici material kimi istifadə edə bilərik.

**Valideyn uşağın ilk müəllimidir.**

Uşaqların valideynləri ilə zaman keçirməsi onların şəxsiyyətinin formalaşmasına birbaşa müsbət təsir göstərir. Bir çox oyunları valideynlər evdə özləri təşkil edə bilərlər. Bununla yanaşı, valideynlər ev işləri görərkən uşaqları da prosesə cəlb edə bilərlər. Məsələn, paltarları şkafa yığarkən uşaqlardan kömək istəyərək paltarların qatlanılmasını onlara tapşıra bilərlər. Ev bazarlığı edildikdən sonra bazarlığın yerinə yerləşdirilməsini uşaqla birlikdə edə bilərlər. Uşaqlarla birlikdə şəkil və rəngli kağızlardan ailə albomu və ya ailə ağacını quraraq ətrafında söhbət apara bilərlər. Hətta ailə üzvlərinin şəkillərini uşaq özü çəkə bilər. Bu zaman həm, ünsiyyət həm yaradıcılıq inkişaf edər, həm də özləri üçün xatirə yaratmış olarlar.





**İstifadə olunmuş ədəbiyyat:**


1. Məktəbəqədər təhsil proqramı (kurikulum), Bakı-2022.
2. Uşaqyönümlü, demokratik məktəbəqədər təhsil, addım-addım yanaşması, İSSA-2019.
3. Erken çocukluk döneminde oyun, Prof. Dr. Ayşe Belgin AKSOY - Prof. Dr. Hale DERE ÇİFTÇİ, Ankara-2014.